Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Dinamik inkişafa malik Azərbaycan-Avropa İttifaqı əlaqələri Azərbaycanı regionda daha qüdrətli ölkəyə çevirir

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



**Bu gün qlobal miqyasda beynəlxalq münasibətlər sisteminin olduqca mürəkkəb bir mərhələyə qədəm qoyması müşahidə edilir. Bu vəziyyətdə indi hər bir ölkə qarşısında duran əsas məqamlardan biri mövcud mürəkkəb şəraitdə öz təhlükəsizliyini təmin edə bilməkdir. Bunun üçün dünya birliyi, müxtəlif beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq zəruri şərt kimi çıxış edir. Bunu uğurla bacaran ölkələrdən biri qismində isə Azərbaycan çıxış edir.**

### Avropa İttifaqı Azərbaycanın regionda müəyyənləşdirdiyi yeni reallıqları qəbul edir

Faktdır ki, Azərbaycan bu gün mövcud olduğu regionun inkişaf perspektivlərini, ümumi gələcəyini müəyyən edən lider dövlətdir. Bu kontekstdə tamamilə təbiidir ki, Cənubi Qafqazda maraqları olan, burada siyasi, iqtisadi və digər vacib müstəvilərdə fəaliyyət göstərmək istəyən ölkələr ilk növbədə Azərbaycanla siyasətlərini uzlaşdırır, dövlətimizin mövqeyini mütləq şəkildə nəzərə alırlar. Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra regionda yaratdığı yeni reallıqlarla bütün dünya ölkələri hesablaşır. Eyni zamanda postmünaqişə dövründə Azərbaycanın regionda sülhün bərqərar olması, əməkdaşlıq münasibətlərinin inkişafı istiqamətində fəaliyyət və səyləri alqışlanır. Bu, Avropa İttifaqı timsalında da özünü qabarıq büruzə verir.

Cənubi Qafqazda postmünaqişə dövrü, Ermənistanla Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası kimi məsələlərdə Avropa ittifaqı Azərbaycana tam dəstək verir. Qurum Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, Cənubi Qafqazda sabitliyin, sülhün bərqərar olmasında maraqlıdır. Bu da Azərbaycanın istək və maraqları ilə tam üst-üstə düşür. Məlumdur ki, Azərbaycan Ermənistanla münasibətlərinin normallaşması, regionda yeni şərtlər daxilində davamlı inkişaf üçün Ermənistana 5 bənddən ibarət sülh təklifi göndərib. Beynəlxalq hüquqa əsaslanan bu təkliflərin Ermənistan tərəfindən qəbul edilməməsi üçün heç bir əsas yoxdur. Bu mənada Cənubi Qafqazda sülh istəyən Avropa İttifaqı da sözügedən təkliflərin qəbulu üçün Ermənistana təsir edir. Bu, Belçika Krallığının paytaxtı Brüsseldə prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla işçi nahar formasında görüşü fonunda özünü qabarıq büruzə verdi. Bu görüş bir daha göstərir ki, Avropa İttifaqı Azərbaycanın regionda müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir. Şarl Mişelin İlham Əliyev və Nikol Paşinyanla ikinci üçtərəfli görüşün yekunlarına dair yaydığı bəyanatda da bu təsdiqini tapdı. Bəyanatdan bəlli oldu ki, Avropa İttifaqı Azərbaycanın sülh təkliflərini alqışlayır. Bundan başqa, bəyanat bir sıra məqamlara görə də xüsusi diqqət clb etdi. Əvvəla, sənəddə "Dağlıq Qarabağ" ifadəsi işlədilmir. Erməni tərəfinin bütün hay-həşirinə baxmayaraq, sənəddə Fərrux kəndi ətrafında son proseslərə də toxunulmaması göstərir ki, Avropa İttifaqı artıq qoşunların dislokasiya yerlərinin dəyişməsinə də Azərbaycanın daxili işi kimi yanaşır. Bundan başqa, bəyanatda ATƏT-in Minsk Qrupunun da adının çəkilməməsi o deməkdir ki, bu strukturun həmsədrlik institutu faktiki olaraq tarixin arxivinə göndərilib və bunu Avropa İttifaqı da qəbul edir. əvəzində Avropa İttifaqının dəstəyi ilə Azərbaycan ilə Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm yaranır. Bunun da məqsədi, ilk növbədə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır.

### İndi Avropa İttifaqı Cənubi Qafqazda fəaliyyətini Azərbaycanla uzlaşdırır

Avropa İttifaqı "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində sabit, təhlükəsiz və çiçəklənən Cənubi Qafqazın olmasında maraqlı olduğunu hər zaman bəyan edir. Azərbaycan Avropa İttifaqının bu yanaşmasını təqdir edir, bu qurumun ölkəmizlə Ermənistan arasında vasitəçilik niyyətini alqışlayır.

Avropa İttifaqı hesab edir ki, sərhədlərin müəyyən edilməsi, kommunikasiya xətlərinin bərpası, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da və 2021-ci il yanvarın 11-də və noyabrın 26-da imzalanmış üçtərəfli bəyanatlardan irəli gələn şərtlərin icrası regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında böyük önəm kəsb edir. Bu, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının tezləşməsi baxımından da olduqca mühümdür. Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması, sülh müqaviləsinin imzalanmasının tezləşməsi istiqamətində Avropa İttifaqının qarşıdakı dövr ərzində daha fəal siyasət yürüdəcəyi şübhə doğurmur. Bu, Avropa İttifaqının regional maraqları baxımından da zəruri əhəmiyyət kəsb edir. Avropa İttifaqı sabit, dinamik inkişaf tempinə malik Cənubi Qafqaz regionunun olmasında maraqlıdır və bu istiqamətdə fəaliyyətini Azərbaycanla uzlaşdırır. Avropa İttifaqı üçün Azərbaycanın dünyada geosiyasi proseslərə, indiki halda Rusiya-Ukrayna qarşıdurmasına münasibəti də olduqca böyük önəmə malikdir. Təsadüfi deyil ki, Şarl Mişelin Azərbaycan rəhbərliyi ilə görüşlərində Ukraynadakı son hadisələrin inkişafı və bunun Cənubi Qafqazda regional təhlükəsizliyə mümkün təsiri məsələləri də müzakirə mövzusu olur. Ümumiyyətlə, Ukraynadakı hadisələrin gedişi, Azərbaycanın buna münasibəti, sözügedən ölkədə sülhün bərqərar edilməsi üçün ata biləcəyi addımlar Avropa üçün olduqca əhəmiyyətlidir. İndi bu silahlı münaqişənin dayandırılmasında Avropa Azərbaycanın imkanlarından yararlanmaq stəyir. Rusiya-Ukrayna konfliktinin dayandırılması, yaranmış böhranın aradan qaldırılması istiqamətində Azərbaycanın təşəbbüsləri Avropada yüksək qiymətləndirilir. Avropa İttifaqı enerji təhlükəsizliyinin təmin edilməsində, etibarlı nəqliyyat-tranzit marşrutları, həyati əhəmiyyətli logistika mərkəzləri kimi məsələlərdə də Azərbaycanı strateji tərəfdaş kimi qəbul edir. Bu, rəsmi Bakının həyata keçirdiyi diplomatiyanın yeni mühüm uğuru kimi də qəbul edilə bilər. Elə bu fonda Brüssel görüşü də Prezident İlham Əliyevin dövlət və milli maraqlarımızı qətiyyətlə qoruduğunu, eyni zamanda Azərbaycanla dünya miqyasında hesablaşıldığını, Avropa İttifaqının da bu sırada yer aldığını bir daha nümayiş etdirdi.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**